

Doğma, canım-varlığım qədər sevdiyim Azərbaycanım mənim qibləgahımdır

Qəzet 1921-ci ildən çıxır

# ŞƏRQ qapısı

Təsisçi: Naxçıvan Muxtar Respublikası Ali Məclisi və Nazirlər Kabineti

Sayı: 113 (23.755)

24 iyun 2021-ci il, cümə axşamı

Gündəlik ictimai-siyasi qəzet

www.serqqapisi.az

Qiymәti 20 qәpik


## Rəsmi xronika



Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev iyunun 23-də BMT-nin Sivilizasiyalar Alyansının ali nümayəndəsi Migel Anxel Moratinosu qəbul edib.

Migel Anxel Moratinos deyib ki, Azərbaycan hər zaman inkişaf edib və bu inkişaf daha da güclənəcək. O, BMT Sivilizasiyalar Alyansının ali nümayəndəsi qismində yeni missiyasında Azərbaycanı dəstəkləməyə çalışmaqdan qürur duyduğunu bildirib.

Prezident İlham Əliyev işğaldan azad edilmiş ərazilərdə müharibədən sonra bir aydan da az vaxtda artıq yenidənqurma prosesinə başlanıldığını, müharibə başa çatandan sonra minalardan, piyada əleyhinə və tank əleyhinə minalardan 30-a yaxın adamın həlak olduğunu, 100-dən çox mülki şəxsin yaralandığını, o cümlədən bu ayın əvvəlində 2 jurnalistin həlak olduğunu xatırladıb. Dövlətimizin başçısı vurğulayıb ki, bütün kəndlər, bütün şəhərlər dağıdılıb. İndi onlar minalardan təmizlənməli, həmçinin paralel olaraq yenidənqurmaya başlanılmalıdır. Böyük infrastruktur layihələrinə artıq başlanıb. Azərbaycan bu miqyasda dağıntıdan inkişafa, insanlar üçün layiqli yaşayış standartlarına doğru dünyada nadir təcrübə nümayiş etdirəcək.

* * *

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev həmin gün Birləşmiş Ərəb Əmirliklərinin (BƏƏ) İqtisadiyyat naziri Abdulla Bin Touq Al Marrini qəbul edib.

## F.K.Ağalarova “general-leytenant” ali hərbi rütbəsinin verilməsi haqqında Azərbaycan Respublikası Prezidentinin Sərəncamı

Azərbaycan Respublikası Konstitusiyasının 109-cu maddəsinin 24-cü bəndini rəhbər tutaraq **qərara alıram:**

General-mayor Fazil Köçəri oğlu Ağalarova “general-leytenant” ali hərbi rütbəsi verilsin.

**İlham ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**
*Bakı şəhəri, 23 iyun 2021-ci il*

---

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 21 iyun tarixli Sərəncamı ilə inzibati vəzifələr tutan bir qrup dövlət qulluqçusuna ixtisas dərəcələri verilmişdir. İxtisas dərəcələri verilənlər arasında Naxçıvan Muxtar Respublikası Ali Məclisi Aparatının rəhbəri də vardır:

**Hüseynli Ülvi Mötəbər oğluna**

İnzibati vəzifələrin birinci təsnifatı üzrə 3-cü dərəcə dövlət müşaviri ixtisas dərəcəsi verilmişdir.

---

Azərbaycan Respublikası Prezidentinin 2021-ci il 23 iyun tarixli Sərəncamı ilə dövlət qulluğunda səmərəli fəaliyyətinə görə bir qrup şəxs təltif edilmişdir. Təltif edilənlər arasında Naxçıvan Muxtar Respublikasının dövlət qulluqçuları da vardır:

**Əliyeva Gülnara Kərim qızı**
**Qasımov Əli Aydın oğlu**
**Qənbərov Əli Hüseyn oğlu**
**Məmmədov Əhəd Məmməd oğlu**
**Rüstəmov Seyfullah Nəsirullah oğlu**

“Tərəqqi” medalı ilə,

**Cəfərov Seymur Nazim oğlu**
**Hüseynov Zamir Tələt oğlu**
**Quliyev Emin Cəfər oğlu**
**Quliyev Namiq Əkbər oğlu**
**Məmmədov Seymur Məmməd oğlu**
**Nəcəfov Əli Cabbar oğlu**
**Sadıxov Sənan Bağır oğlu**
**Şahməmmədova Gözəl Rəşadət qızı**

“Dövlət qulluğunda fərqlənməyə görə” medalı ilə təltif edilmişlər.

---

## Qürur doğuran yüksəliş

### *Bu gün Naxçıvan Muxtar Respublikası bütün sahələrdə əsl nümunə gücünə malikdir*

***Hər daşı, qayası ox nişanlı, hər zümrüdgözlü bulağının pıçıltısında həzin ana laylası çalınan doğma Naxçıvan diyarımız, qədimdən-qədim Naxçıvan şəhəri bina olandan bəri heç vaxt, heç zaman indiki kimi abadlıq adlı sevincin vüsalına qovuşmayıb. Bu inkişafı və tərəqqini görənlər təəccüblənirlər. Təəccüblənirlər ki, son illər ərzində neçə-neçə keçilməz yollar keçib Nuh nəfəsli Əcəmi yurdu.***

Muxtar respublikamız, sözün həqiqi mənasında, yeniliklər dövrünü yaşayır. Bu illər ərzində yurdumuzun elə bir ünvanı olmayıb ki, orada yeni bir bina inşa olunmasın, yol çəkilməsin, parklar, istirahət mərkəzləri yaradılmasın, tarixi abidələr bərpa edilməsin. Saysız-hesabsız tikililər, öz simasını dəyişən küçələr, rahatlığı, təmizliyi ilə seçilən istirahət guşələri, parklar, xiyabanlar torpağa insan əli ilə çəkilən əsrarəngiz naxışlar kimi göz oxşayır.

Ötən illər ərzində qədim diyarımızda çox böyük nailiyyətlər əldə olunub. Dövlət başçısı cənab İlham Əliyev hər səfərində burada görülən işlərin yüksək məhəbbət və zövqlə yerinə yetirildiyini qeyd edib. Dövlətimizin başçısı hər dəfə olduğu kimi, 2021-ci il səfərində də müxtəlif obyektlərin açılışında iştirak etdi, quruculuq işlərini həyata keçirənlərin əməyini yüksək qiymətləndirdi, razı qaldığını bildirdi. Ölkəmizin müstəqilliyinin əldə edilməsi və qorunub saxlanılmasında Naxçıvanın rolu, muxtar respublikada aparılan abadlıq-quruculuq işləri, qədim diyarın sürətli inkişafı, qazlaşdırılması və enerji ilə təminatı məsələləri, içməli su və avtomobil yolları layihələrinin uğurla yerinə yetirilməsi, sosial məsələlərin həlli, iqtisadiyyatın real sektorunun inkişafına göstərilən böyük diqqət, Naxçıvanın blokadadan çıxarılması istiqamətində atılan addımlar, bu yurdun təhlükəsizliyi və başqa bu kimi digər mühüm məsələlərdən danışaraq qürurverici faktlarla görülən işlərin əhəmiyyətini qeyd etdi: ***“Təəssüratlarım çox müsbətdir. Hər zaman Naxçıvanda olanda, burada inkişafı görəndə çox sevinirəm. Bu mənim Naxçıvana 15-ci səfərimdir və hər səfər çərçivəsində bir çox obyektlərin açılışında iştirak edirəm. Naxçıvan sürətlə inkişaf edir. Bütün sahələr üzrə işlər müsbət istiqamətdə gedir”.***

Prezident cənab İlham Əliyevin Naxçıvan Muxtar Respublikasına səfəri bir daha onu göstərdi ki, bu gün qədim diyarımızda geniş quruculuq və abadlıq tədbirləri uğurla davam etdirilir, çoxsaylı infrastruktur layihələri reallaşdırılır, müxtəlif istehsal müəssisələri, sosial obyektlər, ali təhsil və elmi müəssisələr işə salınır, yeni iş yerləri açılır.

Ötən illər Naxçıvan Muxtar Respublikasının çağdaş tarixinə sosial-iqtisadi inkişafın yeni uğurlu dövrü kimi yazılıb. Həyata keçirilən genişmiqyaslı quruculuq tədbirləri, əhalinin maddi rifah halının yaxşılaşdırılması, inkişafın mərkəzlə yanaşı, kəndlərə də istiqamətlənməsi, kəndlə şəhər fərqinin aradan qaldırılması həmin uğurların ciddi fundamental mahiyyətindən, geniş miqyasından xəbər verir.

Muxtar respublikamızda son illər tikinti-quruculuq işlərinin həcminin daha da artırılması, coğrafiyasının genişləndirilməsi qədim diyarımızın hüsnünə sözlə ifadə edilməsi mümkün olmayan gözəlliklər bəxş edib. Bu yeniliklər Naxçıvan Muxtar Respublikasının paytaxtı Naxçıvan şəhərindən başlayaraq ən ucqar dağ və sərhəd, həmçinin ən kiçik kənd yaşayış məntəqələrini də əhatə edir. Bu gün Naxçıvan Muxtar Respublikası görülən işlərin həcminə və keyfiyyətinə görə Azərbaycanın digər bölgələrinə nümunədir. Muxtar respublikamız blokada şəraitində olmasına baxmayaraq, sürətli inkişaf yolundadır. Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin də dediyi kimi: ***“Muxtar respublika hərtərəfli inkişaf edir və bu gün Naxçıvan ölkəmizin ən inkişaf etmiş bölgələrindən biridir. Əminəm ki, Naxçıvan bu liderliyi bundan sonra da saxlayacaqdır”.***



Naxçıvanda yeniləşmə prosesi müasir üslubda, milli özünəməxsusluğa uyğun, hərtərəfli, genişmiqyaslı olub, diyarın bütün ərazisini əhatə edir. Naxçıvan şəhəri yüksək diqqətlə, zövqlə, sistemli şəkildə yenidən qurulur. Rayon mərkəzləri və iri yaşayış məntəqələri də eyni meyar və tələblə abadlaşdırılır, müasirləşdirilir. Ən ucqar kəndlər belə, həyat standartları səviyyəsinə qaldırılır. Yollar, kommunikasiyalar, xidmət obyektləri də yenidən qurulur, ümumi yeniləşməni tamamlayır. Dağ kəndlərində müasir təhsil ocaqlarına və digər sosial obyektlərə baxanda yurd sevgisinin nəyə qadir olduğunu əyani görürsən.

Yaxşı cəhət ondan ibarətdir ki, görülən işlər yalnız muxtar respublikamızın paytaxtı Naxçıvan şəhəri, yaxud digər rayon mərkəzləri ilə məhdudlaşmayıb, bu inkişaf ucqarlara da sirayət edib. Ancaq Naxçıvan şəhəri həm yeniləşməsinə, həm də müasir memarlıq üslubunda qurulmasına, gözəlliyinə görə seçilir. Qədim Naxçıvan şəhəri tarixboyu heç vaxt belə sürətli, bütöv inkişafın şahidi olmayıb. Naxçıvanın tarixində analoqu olmayan rahat, geniş yollar, yaşıllıqlara qərq olan abad küçələr, müasir şəhərsalma mədəniyyətinin yüksək tələblərinə cavab verən əzəmətli memarlıq kompleksləri, ən qabaqcıl, ali və orta təhsil ocaqları ilə rəqabət aparıb qalib gələ biləcək yeni məktəblər, texnologiyanın son nailiyyətlərinə əsaslanan, ekoloji cəhətdən təmiz məhsulları ilə diqqəti cəlb edən çoxsaylı sənaye obyektləri – bütün bunlar qədim şəhərin yeni zirvələri, bu bölgədə Heydər Əliyev siyasətinin uğurla davam etdirilməsinin təntənəsidir.

Əsrlərin, min illərin tarix yollarında heç vaxt yorulmayan, köhnəlməyən şəhər indi bu qədimliyi qoruyub saxlamaq prinsipi ilə yeniləşən diyara çevrilib. Naxçıvan artıq bu gün yeni yolları, geniş prospektləri, əzəmətli binaları, möhtəşəm memarlıq kompleksləri ilə, inkişafın nəhəng addımları ilə irəliləyən qədim tarixli yeni şəhərdir. Naxçıvan şəhərini gəzdikcə hər addımda inkişafın yeni bir mənzərəsi ilə qarşılaşırsan. Doğrudan da, bu şəhər əsl övlad məhəbbəti ilə tikilir, qurulur, abadlaşdırılır. Milli memarlıqla dünya şəhərsalma mədəniyyətinin uğurları bir-birini tamamlayır.

Zəngin dövlətçilik, qüdrətli sivilizasiya yollarının sahibi, beş min ildən artıq şəhərsalma tarixi olan ulu Naxçıvan bu gün əsl inkişaf və tərəqqi meydanını xatırladır. Blokada şəraitində yaşamasına baxmayaraq, belə bütöv, kompleks inkişafa nail olmaq, aydan-aya, ildən-ilə inkişaf tempini daha da yüksəltmək haqlı qürur hissi doğurur. Bu, insanın öz doğma, əzəli torpağı qarşısında həqiqi övladlıq borcunu şərəflə yerinə yetirməsi, öz ana Vətəninə əsl xidmətin təntənəsidir. Bu, ümummilli liderimiz Heydər Əliyevin Vətənə hüdudsuz sevgi və sədaqətinin, onun müdrik, uzaqgörən siyasətinin layiqincə davam etdirilməsidir. Prezident cənab İlham Əliyevin də dediyi kimi: ***“Naxçıvan bizim əziz diyarımızdır, Heydər Əliyevin Vətənidir. Hər bir azərbaycanlı üçün əziz, doğma diyardır və Naxçıvanın inkişafı, çiçəklənməsi artıq reallıqdır. Bu reallığı biz özümüz yaratmışıq. Bu gün ulu öndərin xatirəsinə göstərilən ən böyük diqqət məhz özünü, bax bu inkişafda təcəssüm etdirir”.***

Bütün bu əldə edilən uğurlar isə dostların sevincinə, düşmənlərin kədərinə, həsədinə səbəb olub. Düşmənlər başa düşüb ki, nə qədər bu torpağı sevən, onun qədir-qiymətini bilən, təəssübünü çəkən insanlar var, bu qədim Oğuz-türk yurdu öz varlığını davam etdirəcək, cənnətməkana çevriləcəkdir. Min illərdir, tarixə meydan oxuyan Naxçıvan torpağı, onun zəhmətkeş, qurucu insanları dünya durduqca var olacaqdır. Dövlət başçısının hər səfərinin gətirdiyi yüksək ovqat, onun bütün zəhmətkeş naxçıvanlıların əməyinə verdiyi yüksək qiymətdən doğan böyük sevinc hissi uzun müddət bizi tərk etməyəcək və yeni-yeni nailiyyətlərin qazanılması üçün stimul olacaqdır.


**Turan MƏMMƏDLİ**
*Naxçıvan Muxtar Respublikası Ali Məclisinin deputatı, biologiya üzrə fəlsəfə doktoru*

# Naxçıvan öz xalçaçılıq ənənələrini qoruyur



***Azərbaycanda qeyri-neft sektorunun inkişafı sahəsində həyata keçirilən davamlı islahatlarla əlaqədar ən qədim tətbiqi-sənət növlərindən biri olan xalçaçılığın inkişafı diqqət mərkəzində saxlanılır. Xalçaçılıq tarixən həm Azərbaycan xalqının məişətinin ayrılmaz hissəsi, həm də milli mədəniyyətinin bariz nümunəsi olub. Hər bir xalça toxunduğu yerin təbiəti, onu toxuyan insanların dünyagörüşü və inancları ilə bağlı simvolları əks etdirən sənət əsəridir. Ayrı-ayrı regionların coğrafiyası, tarixi, mədəni və dini mühiti xalçanın özünəməxsus ornament, kompozisiya və digər elementlərinə təsir göstərir. Bu mənada, xalçaçılığın inkişaf tarixi mədəni və maddi irsin qorunması baxımından mühüm əhəmiyyət kəsb edir.***

Azərbaycan sənətkarlığının yüksək səviyyədə inkişaf etdiyi orta əsrlər dövründə Naxçıvan xalçaçılarının da öz dəstxətti olub. Bu qədim el sənəti iqtisadi cəhətdən də sərfəlidir. İstehsal artdıqca xalçamız xarici bazarlarda "Made in Azerbaijan" brendi kimi yerini möhkəmləndirir. Təsadüfi deyildir ki, XII-XIII əsrlərdə Azərbaycanda olan əcnəbi alim və səyyahlar da burada yüksəkkeyfiyyətli xalçaların toxunduğunu və bir sıra ölkələrə ixrac olunduğunu bildiriblər. Özünəməxsus fərqləndirici cəhətlərə malik olan bu xalçalar Naxçıvan xalçaçılıq məktəbinin formalaşmasına səbəb olub. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin 2018-ci il 9 aprel tarixli Sərəncamı ilə təsdiq olunan "Naxçıvan Muxtar Respublikasında xalça sənətinin qorunmasına və inkişaf etdirilməsinə dair 2018-2022-ci illər üçün Dövlət Proqramı" bu sahədə görülən işləri daha da sürətləndirib, xalçaçılığın təbliği üçün geniş imkanlar açıb.

Naxçıvanda qədim el sənəti nümunəsi olan xalçaçılığın inkişafı ilə bağlı "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinin Naxçıvan filialının direktoru Rövşən Abbasovla həmsöhbət olduq. O bildirdi ki, ölkə Prezidentinin iştirakı ilə mayın 10-da "Azərxalça" ASC-nin Naxçıvan filialının istifadəyə verilməsi bu baxımdan böyük əhəmiyyət kəsb edir. Naxçıvanda açılan yeni xalçaçılıq müəssisəsi bütün zəruri xammal və ləvazimatlarla – müxtəlifrəngli yun iplərlə, həvə, qayçı, hana, bıçaq kimi alətlərlə təmin edilib. Bu xalça istehsalı emalatxanalarında 150 toxucunun, 12 inzibati-təsərrüfat işçisinin çalışması üçün müasir iş şəraiti yaradılıb. Emalatxanada müxtəlifölçülü 43 dəzgahda Azərbaycan xalçaları toxunur. Müəssisədə ötən dövr ərzində 450 kvadratmetrdən çox xalça toxunub. O cümlədən 110 xalça artıq kəsilibdir, bunlardan 91 ədədi "Azərxalça" Açıq Səhmdar Cəmiyyətinə göndərilib, 19 xalça isə emalatxanadadır. 21 ədəd xalça isə hazırda xalçaçılarımız tərəfindən toxunur.

Cəmiyyət Azərbaycan Respublikasının Prezidenti cənab İlham Əliyevin 2016-cı il 5 may tarixli Sərəncamı ilə yaradılıb. Cəmiyyətin yaradıldığı gün, eyni zamanda təqvimə Azərbaycan xalçaçılarının peşə bayramı – "Xalçaçı Günü" kimi düşüb. Dünyanın bir çox ölkələrində xalçaçılıq sənəti mövcud olsa da, ilk dəfə belə bir bayramın qeyd olunması məhz Azərbaycanda reallaşıb. Bu hadisə Azərbaycanda xalçaçılığa, bu xalçaları toxuyub ərsəyə gətirən sənətkarlarımıza yüksək dəyər verilməsinin bariz nümunəsidir. Ölkə rəhbəri toxucular üçün müasir, işıqlı emalatxana binaları yaratmaqla yanaşı, həm də onların rahatlığının təmin olunması qayğısına da qalıb. Qeyd etmək istərdim ki, filialda əməkdaşlarımızın işə rahat gediş-gəlişinin təmin edilməsi üçün "Hyundai" markalı avtobus alınıb. Xalçaçılıq üzrə yeni istehsalatların fəaliyyətə başlaması böyük sosial mahiyyət daşıyır. Belə ki, muxtar respublikada açılan xalçaçılıq müəssisəsi yerli sakinlərin, əlalxüsus da qadınların əmək bazarına inteqrasiyasına yeni imkanlar yaradır.

Müsahibim onu da vurğuladı ki, xalçaçılığın inkişafına göstərilən diqqət, ölkəmizin müxtəlif bölgələrində xalça istehsalı emalatxanalarının fəaliyyətə başlaması xammal bazasının yaradılması zərurətini meydana çıxarıb. Bu məsələ də Azərbaycan Prezidentinin diqqət mərkəzində olub. Ölkə rəhbərinin tapşırıqlarına uyğun olaraq Sumqayıt Kimya Sənaye Parkında inşa olunan Yunəyirici-Boyaq Fabrikinin xammalla təmin olunması məqsədilə Naxçıvan şəhərində Regional Yun və Boyaq Bitkilərinin Tədarükü Məntəqəsi üçün bina tikilib. Burada illik istehsal gücü 300 ton olan Türkiyə istehsalı yun presləmə avadanlığı quraşdırılıb. 2019-2020-ci illər ərzində yerli fermerlərdən alınan 74,5 ton yun bura tədarük edilib, 69 ton yun "Azərxalça" ASC-nin Yunəyirici-Boyaq Fabrikinə təhvil verilib. Naxçıvan Regional Yun və Təbii Boyaq Bitkilərinin Tədarükü Məntəqəsinin yaradılması muxtar respublikada heyvandarlığın inkişafına da öz təsirini göstərməklə yanaşı, xalça istehsalı müəssisəsinin yun ipliyə olan tələbatının ödənilməsinə şərait yaradacaqdır.





Əl işi, göz nuru, nəticədə, dəzgahlarda yun iplərdən yaranan gözəl kompozisiyalar vasitəsilə "Azərxalça" ASC-nin Naxçıvan filialı tərəfindən bu qədim el sənəti sevilərək yaşadılır. Burada təcrübəli xalçaçılar çalışırlar. Onlardan biri də Natəvan Zeyniyevadır. Deyir ki, bu sənətə 1995-ci ildən gəlmişəm. Həmişə evimizdə xalça toxunduğuna görə bu mənə bir əyləncə kimi gəlib. İllər keçdikcə ilmələrə, saplara, naxışlara baxa-baxa bir də görmüşəm ki, xalçaçılığın sirrini, sehrini özündə saxlayan ilmələrə, saplara vurğunam. Xalçanın gözəlliyi onun naxışından və rənglərin düzgün seçilməsindən asılıdır. Rəng düzgün seçiləndə, naxışlar düz toxunanda barmaqların sehri ilə gözəl sənət əsəri yaratmaq olur. Yanlış vurulan naxışı usta seçər, naşı seçə bilməz. Mən də həmişə çalışmışam, yanlış naxış vurmayım ki, usta xalçaçılar məni qınamasınlar. Demək istərdim ki, bu iş əsl xanımlarımıza layiq bir sənətdir. Əlimizdən gəldiyi qədər çalışırıq ki dövlətimizin bizə yaratdığı bu şəraitdən istifadə edərək keyfiyyətli xalçalar toxuyaq. Həmçinin öz bildiklərimizi gənclərə də öyrədək.

Xalçaçılar arasında gənc nəslin nümayəndələrinə də tez-tez rast gəlmək mümkündür. Elə xalçaçılıq emalatxanalarının əsas məqsədi də onun sirlərini gələcək nəslə ötürməkdir. Həmsöhbət olduğumuz digər xalçaçı qadın isə Aysun Nəcəfovadır. Aysun xanımın sözlərinə görə, o, 4 il bundan əvvəl peşə məktəbində xalçaçılıq sənətinin incəliklərini öyrənib. Deyir ki, xalçaçılıq maraqlı sənət olduğu qədər çoxlu səbir, diqqət və dözümlülük də tələb edir. Ona görə də bu sənəti sevərək, həvəslə məşğul olmaq lazımdır.

Onu da qeyd etməliyik ki, bu gün muxtar respublikanın bütün bölgələrində xalçaçılıqla məşğul olan çoxlu qadın var. Bunun üçün onlara dövlətimiz tərəfindən hərtərəfli şərait yaradılıb. Bu işlə məşğul olmaq bir tərəfdən ulularımızdan bizə gəlib çatan gözəl bir sənəti yaşatmaq və gələcək nəsillərə ərməğan etməkdirsə, digər tərəfdən evdar qadınlarımızın məşğulluğunun elə öz evində təmin edilməsidir.

Xalça incəsənətin zəngin xəzinəsi, xalqın yazılı tarixi, şifahi ədəbiyyatı, musiqisi, estetik mədəniyyətinin əsas mənbəyidir. Elə bu səbəbdən də Naxçıvanda həmin sənəti qoruyub yaşatmaq məqsədilə bir sıra layihələr həyata keçirilir, rayon və kəndlərimizdə xalça sexləri fəaliyyət göstərir. Xalçaçılığın inkişafı məqsədilə kurslar təşkil olunur. Yeni bina ilə təmin edilmiş Naxçıvan Dövlət Xalça Muzeyi isə zəngin eksponatları ilə qonaqların ixtiyarına verilib. Bütün bunlar zəngin mənəvi irsimizin yaşadılması, onların qorunub saxlanılması və gələcək nəsillərə çatdırılması üçün atılan mühüm addımlardır.

✍ **Aytac CƏFƏRLİ**

# Muxtar respublikada maşınqayırma sənayesi sahəsində böyük nailiyyətlər əldə edilib





*Sənaye hər bir ölkədə iqtisadiyyatın aparıcı sahəsi hesab olunur. Milli iqtisadiyyatımızın hazırkı dövründə mövcud sənaye imkanlarından maksimum yararlanmaq, dinamik məhsul istehsalında dayanıqlılığı təmin etmək məqsədilə yeni istehsal müəssisələrinin yaradılması qarşıda duran əsas vəzifələrdəndir.*

Cari ilin yanvar-may aylarında iqtisadiyyatın əsasını təşkil edən sənayenin inkişaf etdirilməsi üçün rəqabətqabiliyyətli müasir istehsal sahələrinin yaradılması, sənayenin infrastruktur təminatının yaxşılaşdırılması sahəsində mövcud layihələrin icrası davam etdirilmiş, bu istiqamətdə stimullaşdırıcı tədbirlər həyata keçirilmişdir. Bu sahədə mühüm malların istehsalının təmini muxtar respublikada sənayenin iqtisadiyyatda xüsusi çəkisini qoruyub saxlamışdır. Təsadüfi deyil ki, Naxçıvanda yaradılan ümumi daxili məhsulun tərkibində ilk yeri sənaye sahəsi tutur. Bu ilin beş ayı ərzində sənaye üzrə 459 milyon 458 min 500 manat həcmində məhsul istehsal edilmişdir ki, bu da 2020-ci ilin müvafiq dövründəki göstəricini 1 faiz üstələmişdir.

Son illər Naxçıvanda yüksək texnologiyalar əsasında maşınqayırma, kimya, mədənçıxarma, mebel, yüngül və yeyinti sənayeləri üzrə çoxsaylı istehsal sahələri yaradılmış, nəticədə, 384 növdə məhsulun istehsal olunduğu məkanda 350 növdə məhsula olan tələbat yerli istehsal hesabına ödənilir.

Muxtar respublikamızda son illər artan istehsal müəssisələri sırasında maşınqayırma sənayesi ilə məşğul olan Naxçıvan Avtomobil Zavodu əhəmiyyətli yerlərdən birini tutur. Müəssisənin əsası 2006-cı ildə qoyulmuş, 2010-cu ildə istismara verilmişdir. İstehsal prosesində keyfiyyəti əsas götürən zavod 2019-cu ildən "Cahan Holdinq" Kommersiya Şirkətlər İttifaqının tərkibinə daxil olmuş, istehsal olunan avtomobillərin "Cahan Motors" Məhdud Məsuliyyətli Cəmiyyətinin avtomobil salonlarında da satışı təşkil edilmişdir.

Naxçıvan Avtomobil Zavodunda istehsal olunan minik avtomobillərinin satışı da yüksək səviyyədə qurulmuşdur. Naxçıvan və Bakı şəhərində satış mərkəzləri, texniki xidmət şöbələri və avtomobillərin ehtiyat hissələrinin satış mağazaları, həmçinin Şərur və Culfa rayonlarında servis mərkəzləri fəaliyyət göstərir. Bu da muxtar respublikada müəssisənin istehsal etdiyi avtomobillərə texniki xidmət göstərilməsinə əlverişli şərait yaradır.



2021-ci ilin ötən dövrü ərzində yeni modelləri sırasına daha bir avtomobil əlavə edən Naxçıvan Avtomobil Zavodunda "Changan minik-yük", "Changan minivan" markalı avtomobillərin istehsalına başlanılmışdır. Bağlanmış müqavilələrə uyğun olaraq növbəti aylarda 200 ədəd "Lifan 650", 60 ədəd "Lifan X70", 76 ədəd "FAW" markalı minik və yük avtomobillərinin istehsalına başlanılması nəzərdə tutulur.

Texnoloji proseslərə və texniki təhlükəsizlik qaydalarına ciddi əməl olunan müəssisədə 2020-ci il ərzində 117 ədəd avtomobil, 2021-ci ilin ötən dövrü ərzində isə 47 ədəd avtomobil istehsal olunmuşdur.

Dünyanın nəhəng avtomobil müəssisələrinin müxtəlif təyinatlı və modellərdəki nümunələrinin muxtar respublikamızda istehsal olunması Naxçıvanda maşınqayırma sənayesinin güclənməsinə, eləcə də milli iqtisadiyyatın inkişafına öz töhfəsini verəcək.

***Naxçıvan Muxtar Respublikası İqtisadiyyat Nazirliyinin mətbuat xidməti***



Təhsil millətin gələcəyidir

## Xarici dillərin tədrisinin yüksək səviyyədə təşkili müasir dövrün tələbi, təhsilimizə və gəncliyə dövlət qayğısıdır

***Məlum olduğu kimi, müstəqillik illərində muxtar respublikamızda digər sahələrlə yanaşı, elm və təhsil də böyük tərəqqi yolu keçib. Naxçıvan Muxtar Respublikası Ali Məclisi Sədrinin elm və təhsilin inkişafı istiqamətində apardığı fədakar iş müəyyən edilmiş dövlət strategiyasının uğurla həyata keçirilməsinə səbəb olub. Müstəqillik illərinin ilk dövründən başlayaraq yeni inkişaf yoluna qədəm qoyan muxtar respublikada müasir təhsil modeli formalaşdırılıb.***

Muxtar respublikada bütün sahələrdə olduğu kimi, ali təhsil sahəsi də dövlət qayğısı ilə əhatə olunub. Naxçıvan Dövlət Universiteti (NDU) bütün istiqamətlərdə yüksəkixtisaslı kadrlar hazırlanması sahəsində mühüm işlər həyata keçirir. Vətənpərvər ziyalıların, elm, təhsil və mədəniyyət fədailərinin milli təəssübkeşliyi, əzmkarlığı və mübarizəsi sayəsində həyata vəsiqə qazanan Naxçıvan Dövlət Universitetinin ötən illər ərzində göstərdiyi fəaliyyəti xalqımızın həyatında müstəsna rol oynayıb. Ali məktəbin maddi-texniki bazasını daha da genişləndirən addımlardan biri kimi bu il tədris binalarının sırasına Xarici dillər fakültəsi də əlavə olunub. Tədris korpusunda müasir avadanlıqlarla zəngin auditoriyalar, tərcümə mərkəzi, tədris-metodik mərkəz, İngilis dili və tərcümə kafedrası, İngilis dili və metodika, Roman-german dilləri kafedraları, Rus və Şərq dilləri kafedrası, alman dili mərkəzi, multimedia otağı, fransız, ingilis, rus, ərəb, fars dilləri mərkəzləri tələbələrin ixtiyarına verilib. Universitet ölkəmizin ali təhsil sistemində sinxron tərcümə mərkəzinə sahib olan ilk təhsil ocaqlarından biridir. Bu tərcümə mərkəzi fakültədə tədris olunan şifahi tərcümə fənlərinin daha professional şəkildə öyrədilməsi, tələbələrin əyani vəsait və vasitələrlə təlimə cəlb olunması baxımından önəmli rola malikdir. Xarici dillər fakültəsində ingilis, fransız, alman, rus dilləri müəllimliyi ixtisaslarından başqa, Tərcümə (İngilis-Azərbaycan dilləri), Tərcümə (Ərəb-Azərbaycan dilləri), Tərcümə (Fars-Azərbaycan dilləri) olmaqla, 7 ixtisas üzrə ali təhsil verilir. Ali məktəbdə maddi-texniki bazanın gücləndirilməsi və elektron tədris resurslarının inkişaf etdirilməsi istiqamətində ardıcıl tədbirlər həyata keçirilir. Ayrı-ayrı auditoriyaların ən müasir avadanlıqlarla təchiz edilməsi istiqamətində görülən işlərin davamı olaraq cari ildə yeni ağıllı lövhələr, kompüterlər, notbuklar, proyektorlar, çoxfunksiyalı çap maşınları və sair avadanlıqlarla təchiz olunub. Kompüterlərin proqramlaşdırma dilləri, tətbiqi proqram təminatı və əməliyyat sistemləri ən son versiyalara əsaslanır.





1998-ci ilə qədər qeyri-ixtisas fakültələrində tədris olunan ingilis dili elə həmin ildən Naxçıvan Dövlət Universitetində tədris olunan ixtisaslar sırasına əlavə edilib. Dilin yaxşı tədris olunması və tədrisin keyfiyyətinin daha da yüksəldilməsi üçün tədris prosesinə peşəkar kadrlar, müəllim-pedaqoqlar cəlb edilib. Həmin dövrdən bu günədək pedaqoji heyət beynəlxalq və respublika miqyasında müxtəlif konfrans, təlim, seminarlarda Naxçıvan Dövlət Universitetini layiqincə təmsil ediblər. Universitetin müəllim heyəti daim öz üzərində çalışıb, onların peşəkarlıqlarının artırılmasında cəlb olunduqları təlimlər mühüm əhəmiyyət kəsb edib. Belə ki, Böyük Britaniyanın ölkəmizdəki səfirliyinin xətti ilə müəllimlər həm Bakıda, həm də Naxçıvanda təşkil edilən ixtisasartırma kurslarında iştirak edərək öz bilik-bacarıqlarını təkmilləşdiriblər. TEMPUS layihəsi çərçivəsində Azərbaycan Dillər Universiteti ilə birgə əməkdaşlıq edərək bir çox Avropa ölkələrində təlimlərdə iştirak ediblər. Ali məktəbdə işini günün tələbləri səviyyəsində quraraq xarici dili tədris edən müəllimlər nəzəri biliklərini praktikada tətbiq etmək üçün əllərindən gələni edirlər.

Qeyd etməliyəm ki, İngilis dili müəllimliyi ixtisasından başqa, Tərcümə (İngilis-Azərbaycan dilləri) ixtisasının tədrisi də İngilis dili və tərcümə kafedrası tərəfindən aparılır. Bu ixtisas üzrə tələbə qəbulu Naxçıvan Dövlət Universitetində 2009-cu ildən başlamışdır.

Tərcümə (İngilis-Azərbaycan dilləri) ixtisası üzrə bakalavr hazırlığı mühazirə, seminar, sərbəst iş, təcrübə və sair formalarda həyata keçirilir. Tədris prosesində həm də istehsalat təcrübəsi nəzərdə tutulur ki, tələbələr muxtar respublikanın müvafiq idarə və təşkilatlarında, Xarici İşlər İdarəsində, AMEA Naxçıvan Bölməsində təcrübə keçirlər.

2020-ci ilin may ayından Xarici dillər fakültəsi yeni fakültə kimi fəaliyyət göstərir, 2021-ci ilin fevralından isə fakültənin yeni tədris binası istifadəyə verilib. Yeni tədris binasında müasir infrastrukturun yaradılması və tədrisin keyfiyyətinin artırılması istiqamətində görülən işlər muxtar respublikada təhsilin inkişafına göstərilən hərtərəfli dövlət qayğısının əyani ifadəsidir.

Bu gün beynəlxalq konfranslar, simpoziumlar, idman yarışları mərkəzinə çevrilmiş ölkəmizin müxtəlif dillər üzrə peşəkar sinxron tərcüməçilərə daha çox ehtiyacı var və fikrimizcə, sinxron tərcümə mərkəzinin açılması bu boşluğu dolduracaq.

Ümumiyyətlə, müasir dövrdə ali məktəbin, xüsusilə xarici dillər üzrə elmi biliklərə yiyələnənlərin qarşısında təhsilin keyfiyyətini yüksəltmək kimi məsul və şərəfli bir vəzifə durur. Bu vəzifəni müvəffəqiyyətlə yerinə yetirməkdə məqsəd tələbələrə dərin bilik vermək, onların fəallıq və müstəqilliyini təmin etməklə, ölkədə baş verən yeniliklərlə tanış etməklə təhsil alanlarda geniş elmi dünyagörüşü yaratmaqdır.

Respublikamızda həyata keçirilən təhsil islahatı təhsil müəssisələrinin fəaliyyətində köklü yerdəyişmənin həyata keçirilməsini nəzərdə tutur. Belə ki, nəzəri biliklərlə yanaşı, praktik dərslərə geniş yer vermək, təcrübəni tətbiq etmək, yeni tələblər çərçivəsində tədrisi təşkil etmək, elektron lövhə və digər texniki vasitələrdən istifadə etməklə məqsədimizə nail olmaq əsas vəzifəmizdir. Bütün bunlarla yanaşı, sinxron tərcümənin təşkilini yaxşılaşdırmaq məqsədilə müxtəlif dillərdə filmlər izləmək, xarici ekspertlərin tövsiyələrini tətbiq etməklə milli ruhlu xarici dil mütəxəssisləri yetişdirmək də əsas məqsədlərimizdən biridir. Müasir dövrdə ali məktəblərdə ingilis dilinin xarici dil kimi tədrisində aparıcı yerlərdən birini kommunikativ metod tutur. Bu metod tələbələrdə bu və ya digər situasiyalarda yaranmış kommunikativ məsələləri xarici dil, yəni ingilis dili vasitəsilə həll etmək və ingilis dili daşıyıcıları ilə onların öz doğma dilində anlaşa bilmək bacarığını formalaşdırmağa xidmət edir. Təcrübəmizdən aydın olur ki, kommunikativ metodun tətbiqi ingilis dilinin təbii ünsiyyət prosesində mənimsənilməsinə xidmət edir.

Tələbələrdə tədqiqatçılıq və analizetmə bacarıqlarını inkişaf etdirmək üçün onlara mövzu verib müəyyən vaxt ərzində həmin mövzu ətrafında təqdimatla çıxış etmələri də, zənnimizcə, xarici dillərin öyrənilməsində və bu istiqamətdə biliklərin dərinləşməsində mühüm rol oynaya bilər.

Universitetin yetişdirdiyi peşəkar kadrlar, xüsusilə Tərcümə (İngilis-Azərbaycan dilləri) ixtisasına yiyələnən məzunlar respublikamızda dövlət və özəl müəssisələrdə uğurla fəaliyyət göstərirlər. Naxçıvan Dövlət Universitetində əldə etdikləri biliklər məzunlarımızın daim köməyinə çatır, onların peşəkar kadr kimi formalaşmasına öz töhfələrini verir.

Qeyd etməliyik ki, dil həm də güclü informasiya silahıdır. Xarici dillərin əhəmiyyətini yola saldığımız 2020-ci ildə 44 günlük Vətən müharibəsində ölkəmizin qazandığı parlaq qələbənin informasiya müharibəsində də əyani şahidi olduq. Belə ki, dövlət başçısının xarici dillərdə müxtəlif dünya media kanallarına verdiyi müsahibələr, açıqlamalar xarici dil bilmənin əhəmiyyətini bir daha sübut etdi. Eyni zamanda informasiya müharibəsində xarici dilləri bilən gənclər Qarabağ həqiqətlərini dünyaya sosial media üzərindən çatdıra bildi. Bəli, biz tarixi torpaqlarımıza sahib çıxdıq. Bundan sonra da Avropa və Şərq dillərini dərindən öyrənəcək, arxivlərimizdə tədqiqat aparmaqla, onları müxtəlif dillərə mükəmməl tərcümə etməklə dünyaya yeni faktlar ortaya qoyacağıq.

*İnanırıq ki, Azərbaycanda maarifçiliyin və ali təhsil sisteminin inkişafında özünəməxsus rolu olan Naxçıvan Dövlət Universiteti gələcəkdə də yüksəkixtisaslı kadrların yetişdirilməsinə, elmi və ali təhsil mühitinin formalaşmasına öz təsirini göstərəcək, universitetin məzunları ölkəmizdə milli dövlət quruculuğunun müxtəlif sahələrində çalışaraq iqtisadi, elmi və mədəni potensialın gücləndirilməsinə layiqli töhfələr verəcəklər.*

**İlhamə MƏMMƏDOVA**
***Naxçıvan Dövlət Universitetinin İngilis dili və tərcümə kafedrasının müdiri, dosent***

## Kitab təqdimatı olub

***Azərbaycan Milli Elmlər Akademiyası Naxçıvan Bölməsi əməkdaşlarının 2020-ci ildə nəşr olunan əsərlərinin biblioqrafik göstəricilərindən ibarət kitabın təqdimatı olub.***





Tədbiri giriş sözü ilə açan bölmənin sədri, akademik İsmayıl Hacıyev "Biblioqrafik göstəricilər" kitabının 2018-ci ildən başlayaraq Elm və təhsil şöbəsi tərəfindən tərtib olunduğunu söyləyib. Bildirib ki, əməkdaşların elmi və publisistik fəaliyyətlərinin əksini tapdığı, sayca dördüncü kitab həm illik göstəricilərin ayrı-ayrılıqda təhlil olunmasında, həm də tədqiqat materiallarının mənbəyinin tez və asan əldə edilməsində əhəmiyyətlidir.

AMEA Naxçıvan Bölməsi aparatının Elm və təhsil şöbəsinin müdiri, aqrar elmlər üzrə fəlsəfə doktoru, dosent Orxan Bağırov diqqətə çatdırıb ki, yeni nəşrin layihə rəhbəri və baş redaktoru akademik İsmayıl Hacıyev, tərtibçisi isə filologiya üzrə fəlsəfə doktoru Leyla Səfərovadır.

İki hissədən ibarət nəşrin birinci hissəsində il ərzində nəşr olunan əsərlər, ikinci hissədə isə köməkçi göstəricilər verilmişdir. Burada 38 kitab, monoqrafiya, metodik vəsait, xəritə və buklet adlarının əlifba göstəricisi, respublika jurnallarında çap olunmuş 288 məqalənin, kitab və toplularda 144 məqalənin, xaricdə nəşr olunmuş 99, rus dilində dərc olunmuş 52 əsərin adlarından ibarət əlifba göstəricisi təqdim edilib.

Tədbirin sonunda professor Əbülfəz Quliyevin, dosentlər Qulu Həziyev və Fərman Xəlilovun təklifləri dəyərləndirilib.

***AMEA Naxçıvan Bölməsinin mətbuat xidməti***

## Müsabiqələrin yekunlarına həsr olunmuş tədbir keçirilib



*Dünən Naxçıvan şəhərindəki "Gənclik" Mərkəzində Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə uşaq və gənclər arasında keçirilmiş rəsm, rəqs, solooxuma və ifaçılıq müsabiqələrinin yekunlarına həsr olunmuş tədbir keçirilib.*

Tədbir başlanmazdan əvvəl rəsm müsabiqəsində yer tutmuş şagirdlərin rəsm əsərlərindən ibarət sərgiyə baxış olub.

Naxçıvan Muxtar Respublikasının Mədəniyyət naziri Natavan Qədimova tədbirdə çıxış edərək bildirib ki, bu gün Naxçıvan Muxtar Respublikasında mədəniyyətimizin bütün sahələri kimi, milli musiqimizin də inkişafına hərtərəfli dövlət qayğısı göstərilir. Müstəqillik illərində Naxçıvan şəhərində, rayon mərkəzlərində yeni uşaq musiqi və bədii sənətkarlıq məktəbləri inşa olunaraq istifadəyə verilmiş, Naxçıvan Dövlət Filarmoniyasının, Naxçıvan Dövlət Uşaq Filarmoniyasının maddi-texniki bazası gücləndirilmiş, Naxçıvan Muxtar Respublikası Bəstəkarlar Təşkilatının, Aşıqlar Birliyinin fəaliyyəti üçün yüksək iş şəraiti yaradılmışdır. Gənc nəslə milli musiqi sənətimizin aşılanması istiqamətində həyata keçirilən ardıcıl tədbirlərin, yaradılan şəraitin nəticəsidir ki, bu gün muxtar respublikada uşaq musiqi, incəsənət və bədii sənətkarlıq məktəblərinin şagirdləri ölkəmizdə, eləcə də beynəlxalq miqyasda keçirilən müsabiqələrdə uğurla iştirak edirlər.

Vurğulanıb ki, son illər muxtar respublikanın uşaq musiqi və bədii sənətkarlıq məktəblərində keçirilən ustad dərsləri musiqi müəllimlərinin pedaqoji təcrübəsinin artırılmasında, eləcə də istedadlı uşaq və yeniyetmələrin professional musiqiyə cəlbində mühüm rola malikdir. Bundan başqa, musiqi təhsili müəssisələrində çalışan müəllimlərin bilik və bacarıq səviyyəsinin müəyyənləşdirilib üzə çıxarılması, qiymətləndirilmə aparılan müəllimlərin müvafiq dərs yükü normasının optimallaşdırılmasının təmin edilməsi məqsədilə test və müsahibə mərhələlərindən ibarət attestasiya imtahanlarına cəlb edilməsi də muxtar respublikada professional musiqi sənətinin yüksək səviyyədə inkişafına töhfə verən amillərdəndir.

Qeyd olunub ki, Naxçıvan Muxtar Respublikasında mədəniyyətin bütün sahələrinə göstərilən böyük diqqət və qayğının nəticəsidir ki, milli dəyərlərimizin, zəngin mədəniyyətimizin yaşadılması və təbliği məqsədilə hər il incəsənətin müxtəlif sahələrini əhatə edən festivallar, müsabiqələr, yarışlar, keçirilir. Belə mədəni tədbirlər isə, öz növbəsində, istedadlı şəxslərin incəsənətə cəlbinə geniş imkanlar açır.

Diqqətə çatdırılıb ki, Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin təşkilatçılığı ilə bu ilin aprel, may və iyun aylarında keçirilən rəsm, rəqs, ifaçılıq və solooxuma müsabiqələri də muxtar respublikada istedadlı uşaq, yeniyetmə və gənclərin aşkar olunaraq onların incəsənətin musiqi, rəqs, rəssamlıq və ifaçılıq kimi yüksək yaradıcılıq qabiliyyəti tələb edən sahələrinə cəlb edilməsi işinə, eləcə də milli mədəniyyətimizin təbliğinə töhfə verəcəkdir. Bu müsabiqələrin keçirilməsində başlıca məqsəd muxtar respublikada musiqi sənətinin inkişaf etdirilməsi, gənc istedadların aşkara çıxarılması, onların ifaçılıq səviyyəsinin yüksəldilməsindən ibarətdir.

Keçirilən bütün bu müsabiqələrdə iştirak edən yeniyetmə və gənclərin istedad və bacarıqları Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin müvafiq əmri ilə yaradılmış və muxtar respublikanın tanınmış incəsənət xadimlərindən ibarət münsiflər heyəti tərəfindən 10 ballıq sistem üzrə qiymətləndirilmişdir.

Mədəniyyət naziri çıxışının sonunda qalib olmuş iştirakçıları təbrik edərək onlara gələcək fəaliyyətlərində uğurlar arzulayıb, Naxçıvan Muxtar Respublikasında yaradıcı gənclərin formalaşmasına, eləcə də incəsənətin bütün sahələrinin təbliğinə və yaşadılmasına göstərilən diqqət və qayğıya görə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin Sədrinə minnətdarlığını bildirib.

Sonra müsabiqə qaliblərinin mükafatlandırma mərasimi keçirilib, 4 müsabiqə, 14 nominasiya və 3 yaş qrupu üzrə, ümumilikdə, 157 iştirakçı və kollektiv təltif edilib.

Tədbirin bədii hissəsində müsabiqə qaliblərinin ifasında müxtəlif musiqi nömrələri və Azərbaycan xalq rəqsi təqdim edilib.

***Naxçıvan Muxtar Respublikası Mədəniyyət Nazirliyinin mətbuat xidməti***

*Bu gün məişət zəminində baş verən anlaşılmazlıqların bir qismini də bəzən qonşularla ortaq su və yoldan istifadə, sərhəddə əkilmiş ağac, ortaq hasarların tikilməsi və sair bu kimi problemlər təşkil edir. Daşınmaz əmlakla bağlı mübahisələrin həlli məqsədilə edilən müraciətlərin təhlilindən aydın olur ki, mübahisələrin, təqribən, yarısı qonşular arasında qarşılıqlı münasibətlərin pozulmasından yaranan səbəblərlə xarakterizə olunur. Bəs qanunvericiliklə bu cür hallar necə tənzimlənir? Mövzu ilə bağlı suallarımızı Naxçıvan Muxtar Respublikası Daşınmaz Əmlak və Torpaq Məsələləri üzrə Dövlət Xidmətinin hüquqşünası Rəfayıl Məmmədov cavablandırır.*

# Qonşuluq münasibətləri qanunvericilikdə necə tənzimlənir



***– Rəfayıl müəllim, xoş gördük sizi redaksiyamızda. Aydın məsələdir ki, qonşular arasında yaranan mübahisələrin böyük əksəriyyəti, bilavasitə, mülkiyyət hüququ ilə bağlı olur. Qanunvericilikdə bununla bağlı hansı meyarlar var?***

– Çox sağ olun, dəvət üçün. Bildiyiniz kimi, Azərbaycan Respublikasının Konstitusiyasına əsasən hər kəsin mülkiyyət hüququ var, mülkiyyət toxunulmazdır və dövlət tərəfindən müdafiə olunur. Lakin Azərbaycan Respublikasının Mülki Məcəlləsi ilə müəyyənləşdirilmiş hallarda mülkiyyət hüququ məhdudlaşdırıla bilər.

Belə ki, mülki qanunvericiliyə əsasən hər bir daşınmaz əmlak mülkiyyətçisi, əgər quyuların qazılması, drenaj, qaz və başqa boruların, habelə yerüstü və yeraltı elektrik xətlərinin çəkilməsi onun torpaq sahəsindən istifadə edilmədən qətiyyən mümkün deyildirsə və ya hədsiz yüksək məsrəflər hesabına mümkündürsə, bununla əlaqədar dəyən zərərin əvəzinin qabaqcadan tam ödənilməsi şərti ilə həmin tədbirlərin həyata keçirilməsinə icazə verməlidir. Bu məqamda yüklü torpaq sahəsinin mülkiyyətçisi öz mənafelərinin ədalətlə nəzərə alınması hüququna malikdir. Həmçinin yerüstü xətlərin çəkildiyi hallarda, əgər fövqəladə hallar əsas verirsə, o tələb edə bilər ki, həmin xəttin keçdiyi ağlabatan həcmdə torpaq sahəsi tam əvəzi ödənilməklə ondan ayrılsın. Əgər şərait dəyişərsə, mülkiyyətçi xəttin onun mənafeyinə uyğun çəkilməsini tələb edə bilər. Çəkilmənin dəyərini ixtiyarlı şəxs ödəməlidir, lakin xüsusi halların əsas verdiyi yerlərdə dəyərin ağlabatan hissəsi mülkiyyətçinin hesabına aid edilə bilər.

***– Qanunvericilikdə “qonşuluq hüququ” deyilən bir anlayış var. Bu hüquq nədən ibarətdir?***

– İkitərəfli təsirlərin törəyə biləcəyi hər bir torpaq sahəsi və ya digər daşınmaz əmlak qonşunun sahəsi və ya əmlakı sayılır. Qonşu torpaq sahələrinin və ya digər daşınmaz əmlakın mülkiyyətçiləri, qanunda nəzərdə tutulmuş hüquq və vəzifələrindən əlavə, bir-birinə qarşılıqlı hörmət bəsləməlidirlər. Eyni zamanda öz mülkiyyət hüququnu həyata keçirən hər kəs qonşunun mülkiyyətinə hədsiz təsirlərdən çəkinməlidir. Xüsusən işlənmiş qazların, tozun, ağır qoxuların, səs-küyün və ya titrəyişlərin bütün ziyanlı və torpaq sahələrinin mövqeyinə və xarakteristikasına görə qanunsuz təsirləri qanunvericiliklə qadağan olunur. Heç kəsə icazə verilmir ki, suyun təbii axınını qonşunun ziyanına dəyişdirsin. Aşağı torpaq sahəsi üçün zəruri olan su yuxarı torpaq sahəsi üçün zəruri olan həcmdə axıdıla bilər. Su axıdılarkən aşağıda yerləşən torpaq sahəsinin mülkiyyətçisi əvvəllər ona təbii yolla gəlmiş suyu kompensasiyasız götürməlidir. Əgər suyun buraxılması nəticəsində ona ziyan dəyirsə, tələb edə bilər ki, yuxarıdakı mülkiyyətçi öz hesabına aşağı torpaq sahəsindən nov çəksin. Bir neçə torpaq sahəsindən axan tullantı və yeraltı suların istiqamətini dəyişdirərək və ya onları qarışdıraraq başqa torpaq sahələrində suyun miqdarını azaltmaq və ya keyfiyyətini pisləşdirmək yolverilməzdir. Bir də qanunvericilikdə qonşu təsirinə dözmək vəzifəsi var. Bu nədir? Torpaq sahəsinin və ya digər daşınmaz əmlakın mülkiyyətçisi, əgər öz sahəsindən istifadə etməkdə ona maneçilik yaranmırsa, və ya hüququ əhəmiyyətsiz dərəcədə pozulursa, qonşu sahədən qazın, buxarın, qoxunun, hisin, tüstünün, səs-küyün, istiliyin, titrəyişlərin və ya digər oxşar amillərin öz sahəsinə təsirini qadağan edə bilməz. Təsirin əhəmiyyətli olduğu, lakin digər torpaq sahəsindən və ya başqa daşınmaz əmlakdan adi istifadədən törəndiyi və istifadəçilərin həmin növü üçün normal təsərrüfat fəaliyyəti sayılan tədbirlərlə qarşısı alına bilmədiyi hallarda da eyni qayda qüvvədə olur. Əgər mülkiyyətçi bu cür təsirə dözməyə borcludursa, o, təsiri əmələ gətirən torpaq sahəsinin və ya digər daşınmaz əmlakın mülkiyyətçisindən, təsirin həmin ərazi üçün təsdiq edilən adi istifadədən və iqtisadi cəhətdən yol verilən hədlərdən yüksək olduğu hallarda pul formasında müvafiq kompensasiya tələb edə bilər. Bundan əlavə, qazıntı və tikinti işləri apararkən mülkiyyətçiyə icazə verilmir ki, torpağı qonşu torpaq sahələrinə kürüməklə onlara ziyan vursun və ya onları təhlükəyə məruz qoysun, yaxud həmin sahələrdəki qurğuları zədələsin. Belə halda torpaq sahəsinin mülkiyyətçisi belə qurğuların qonşu sahədə tikilməsinin və ya istismarının qadağan olunmasını tələb edə bilər. Bunu da qeyd edim ki, başqa daşınmaz əmlaka keçən çıxıntıları olan binalar və digər qurğular da yerləşdikləri daşınmaz əmlakın tərkib hissəsi kimi qalırlar, bu şərtlə ki, həmin əmlakın mülkiyyətçisi onlara əşya hüququna malik olsun. Qonşu ya üst tikiliyə qarşı etirazını bildirə bilər, ya da bununla barışaraq ağlabatan əvəz ödənilməsini tələb edə bilər. Həmçinin əgər çıxıntılı budaqlar və uzanan köklər qonşunun mülkiyyətinə ziyan vurarsa və bu cür təsir onun şikayəti ilə ağlabatan müddətdə aradan qaldırılmazsa, o, həmin budaqları və kökləri kəsib özündə saxlaya bilər. Ağac və ya kolun meyvəsi qonşunun torpaq sahəsinə düşdükdə həmin torpaq sahəsinin meyvəsi sayılır.

***– Qonşular arasında baş verən problemlərdən biri də mülkiyyətçinin öz sahəsindən ictimai yola və ya müxtəlif təchizat xətlərinə birbaşa keçidinin olmamasıdır. Bu da bir çox hallarda qonşularla mübahisəyə yol açır.***

– Bəli, əgər torpaq sahəsi mülkiyyətçisinin öz sahəsindən ictimai yola, elektrik, neft, qaz və su təchizatı xətlərinə keçidi yoxdursa, o tələb edə bilər ki, qonşular ona tam əvəzi ödənilməklə zəruri keçid ayırsınlar. Tələb, ilk növbədə, o qonşuya qarşı yönəldilir ki, mülkiyyət və keçid münasibətləri ilə əlaqədar keçid verilməsinin ondan tələb edilməsi daha yolveriləndir. Daha sonra tələb keçidin daha az zərər vurduğu qonşulara yönəldilir. Zəruri keçid müəyyənləşdirilərkən qarşılıqlı mənafelər nəzərə alınmalıdır. Sahələrindən zəruri yol və ya birləşdirici xətt keçəcək qonşulara müvafiq kompensasiya ödənilməlidir. Tərəflər arasında razılaşmaya əsasən kompensasiya birdəfəlik ödəniş şəklində verilə bilər.

***– Bəs torpaq sahələrinin hasarlanması ilə bağlı qanunvericilikdə nə göstərilir?***

– Hasarlama xərclərini hasarın yerləşdiyi torpaq sahəsinin mülkiyyətçisi çəkir. İki torpaq sahəsi arasında barı vasitəsilə və ya sərhəd kimi istifadə edilən başqa qurğu ilə mərz çəkildikdə ehtimal edilir ki, torpaq sahələrinin mülkiyyətçiləri həmin qurğudan istifadə etməkdə bərabər hüquqlara malikdirlər və onunla bağlı xərcləri öz mənafelərinə mütənasib surətdə ödəməlidirlər. Əgər hər iki qonşunun sərhəd kimi istifadə edilən qurğudan birlikdə yararlanmağa haqqı çatırsa, onlardan hər biri qurğudan elə istifadə edə bilər ki, birgə istifadə zamanı qonşuya maneçilik yaranmasın. Torpaq sahəsinin mülkiyyətçisi qonşu sahənin mülkiyyətçisindən möhkəm ayırıcı mərz çəkilməsində və ya mövcud olmuş, lakin uçmuş və ya zədələnmiş mərzin bərpasında iştirak etməyi tələb edə bilər. Mərz çəkilməsi xərcləri, iki qonşunun razılaşması ilə ayrı qaydada müəyyənləşdirilməyibsə, onların arasında bərabər bölünür. Nə qədər ki, qonşulardan biri mərz qurğusunun olmasında maraqlıdır, həmin mərz onun razılığı olmadan uçurula və ya dəyişdirilə bilməz. Lakin Azərbaycan Respublikasının Şəhərsalma və Tikinti Məcəlləsinə əsasən tikinti obyektində bərpa işləri aparılarkən qonşular arasındakı razılığa, belə razılıq olmadığı təqdirdə isə tərəflərdən birinin ərizəsi ilə məhkəmənin qərarına əsasən mövcud ortaq divar layihəyə uyğun olaraq sökülə və yenidən bərpa edilə bilər. Əgər mərz çəkilməsi üçün dəqiq sərhədləri müəyyənləşdirmək mümkün deyildirsə, qonşuların faktiki sahibliyi həlledici əhəmiyyət daşıyır. Bu mümkün olmadıqda, mübahisəli ərazi sahələr arasında bərabər bölüşdürülür.

***– Müsahibə üçün sağ olun.***

**✍ Səbuhi HƏSƏNOV**

*Mütəxəssis sözü*

# Yaylaq mövsümünə hazırlıq

*Muxtar respublikada ərzaq təhlükəsizliyinin təmin olunmasında mühüm mövqeyə sahib olan heyvandarlığın inkişafı diqqət mərkəzində saxlanılır. Bu inkişafı təmin edən amillərdən biri də heyvanların yaylaqlara aparılmasıdır.*



Heyvanlar yaylaqlara aparılarkən çalışmaq lazımdır ki, onların sağlamlığı pozulmasın və qısa müddətdə təyin olunmuş yerə çatdırılsın, habelə heyvanlar arasında tələfat baş verməsin. Bunun üçün bir sıra şərtlərə əməl olunmalıdır. Belə ki, bir yerdən başqa yerə yoluxucu xəstəliklərə görə sağlam olan təsərrüfatlardakı heyvanlar köçürülməli, xəstə və arıq heyvanların sağlamlarla birlikdə köçürülməsinə yol verilməməlidir. Köçürüləcək heyvanlar əvvəlcə klinik müayinədən keçirilməli, lazımi baytarlıq-sanitariya tədbirləri və peyvəndlər aparılmalı, köçə hazır olmayan arıq, axsaq, qoca heyvanlar seçilərək sürüdən ayrılmalıdır.

Yadda saxlamaq lazımdır ki, xroniki infeksion xəstəliklərə tutulmuş (vərəm, bruselyoz, infeksion anemiya və sair) heyvanlar yaylağa köçürülə bilməz və onlar baytarlıq mütəxəssislərinin göstərişi ilə kökəltməyə qoyulmaqla çıxdaş edilməli, köç yolunda baş vermiş infeksiyanın yayılmasının qarşısını almaq üçün bütün tədbirlər görülməli, yolda xəstə heyvanların sağlam heyvanlar ilə bir yerdə olmasına qəti yol verilməməlidir. Köç zamanı sürüdən geri qalan heyvanlar (axsaq, yorulmuş, zədələnmiş) nəqliyyat vasitəsilə daşınmalı, köçürüləcək sağlam heyvanlar üçün əvvəlcədən həm də yem ehtiyatı yaradılmalıdır.

Heyvanların nəqliyyatsız qısa məsafələrə aparılması və yaylaq-otlaq şəraitinə köçürülməsinə hazırlıq işləri elə təşkil edilməlidir ki, onlar yolda öz çəkilərini və məhsuldarlıqlarını itirməsinlər. Heyvanların şose və torpaq yol ilə aparılması çobanların bacarığından və iş təcrübəsindən xeyli asılıdır.

Onu da qeyd edək ki, heyvanları köçürməzdən əvvəl epizootik yol marşrutu müəyyən olunur. Heyvanlar ancaq əvvəlcədən müəyyən edilmiş marşrutla hərəkət edir, yoxlamaq və ya istirahət vermək üçün müəyyən məntəqələrdə saxlanır. Köç marşrutu, dincəlmə məntəqələri baytar işçiləri və inzibati ərazi dairəsi üzrə nümayəndələr tərəfindən təyin edilir.

Dincəlmə məntəqələrində heyvanlar gecələyir, suvarılır, yemlənir və baytarlıq müayinəsindən keçirilir. Yolda köçürülən heyvanların başqa heyvanlarla qarışmasına yol verilməməlidir.

Heyvanların aparıldığı istiqamətdəki yol və dincəlmə məntəqələri yoluxucu və invazion xəstəliklərə görə sağlam olmalıdır. Yolda xəstəlik və ya ölüm hadisəsi olduqda baytar həkim çağırılmalı və müvafiq mübarizə tədbirləri görülməlidir.

Heyvanların yaşından asılı olaraq hərəkət sürəti və otarma planı tərtib edilir. Ot çox olan yerlərdə heyvanların sürəti azaldılır, ot az olan yerlərdə isə artırılır. Yol gedən heyvanlara hər 5 gündən bir 1,5-2 gün istirahət verilməlidir. İstirahət üçün su mənbəyi və yaxşı otlaqlı sahə seçilməlidir. Dincəlmə məntəqəsinə çatdıqdan 1,5-2 saat sonra heyvanlar suvarılmalıdır. İsti və bürkülü havalarda dincəlmə yeri bir qədər hündür və kölgəlik sahələrdə seçilməlidir.

Yay fəslinin isti günlərində heyvanlar səhər tezdən və axşamçağı (yəni sərin düşəndə), bir yerdən başqa yerə aparılmaq üçün hərəkət etdirilməli, günün qızmar vaxtında (günorta) isə sərin kölgəlikdə saxlanmalıdır.

Bir yerdən başqa yerə aparılan sürü və ya ilxı müvafiq avadanlıqlarla (vedrə, bağlama vasitələri, qoşqu ləvazimatları, balta və sair), nəqliyyatla və duzla, ilk baytarlıq yardımı üçün dərman vasitələri ilə təmin edilməlidir.

Çobanlar heyvanları yaxşı və təhlükəsiz yerlərlə aparmalı, yolda hər cür təhlükəyə qarşı hazır olmalıdırlar. Təhlükəli yerlərdən (çaylardan, dərələrdən, dağlardan, körpülərdən, qumsal yerlərdən, dağlıq ərazilərdən, kolluqlardan, zəhərli bitkilər olan yerdən və epizootik xəstəliklərə görə qeyri-sağlam təsərrüfatlardan) keçdikdə bütün ehtiyat tədbirləri görülməlidir.

**Əyyub ABDULLAYEV**
***Naxçıvan Muxtar Respublikası Kənd Təsərrüfatı Nazirliyinin Heyvandarlıq, damazlıq işi və otlaqlar şöbəsinin müdiri***

# Virus infeksiyalarına qarşı mübarizə tədbirləri davam etdirilir



Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin xüsusi qurğularla təchiz edilmiş yanğınsöndürmə avtomobilləri vasitəsilə Naxçıvan şəhərində avtomobil yolları və səkilər daxil olmaqla, 850 min $m^2$ sahə, eləcə də təyin olunmuş dezinfeksiya qrupları tərəfindən səhiyyə müəssisələri, uşaq bağçaları, idarə, müəssisə və təşkilatların ətrafı, ticarət mərkəzləri dezinfeksiya edilmişdir.

Həmçinin Dövlət Baytarlıq Xidmətinin xüsusi təyinatlı dezinfeksiya avtomobilləri və dezinfeksiya qrupları cəlb olunmaqla, 2 nömrəli Mənzil İstismar İdarəsinə məxsus ictimai yaşayış binalarının girişləri, ətrafı və zirzəmiləri dezinfeksiya edilmişdir.

Dezinfeksiya tədbirləri Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin Dövlət Yanğın Təhlükəsizliyi İdarəsinin xüsusi qurğu quraşdırılmış 2 avtomobili və Baytarlıq Xidmətinin 2 dezinfeksiya avtomobili vasitəsilə həyata keçirilmişdir.

Əhalinin yoluxucu xəstəliklərdən qorunması istiqamətində dezinfeksiya tədbirləri muxtar respublikanın rayonlarında da davam etdirilir, ümumilikdə, 2 milyon 138 min $m^2$ ərazi dezinfeksiya olunub

***Naxçıvan Muxtar Respublikası Fövqəladə Hallar Nazirliyinin mətbuat xidməti***


ŞƏRQ qapısı
Baş redaktor: MEHRİBAN SULTANOVA

Ünvan: AZ-7000, Naxçıvan şəhəri, “Təbriz” küçəsi 14.
Telefonlar: Məsul katib: 545-62-47
Şöbələr: 545-81-44, 545-51-18
Müxbirlər: 545-75-21, Faks: 544-52-52
E-mail: serqqapisi@nakhchivan.az

Qeydiyyat №: 575

Əlyazmalara cavab verilmir və onlar geri qaytarılmır

Nömrəyə məsul: Ceyhun Məmmədov
Qəzet redaksiyanın kompüter mərkəzində yığılıb, səhifələnib və Əcəmi NPB-də ofset üsulu ilə çap olunmuşdur.
Tiraj: 1500. Sifariş № 496